**“Açıq hökumətin təşviqinə dair 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planı”nda nəzərdə tutulan tədbirlərin Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən 2021-ci il ərzində icrası barədə**

# H E S A B A T

**1.2-ci bəndin icrasına dair (Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı illik tədbirlər planının hazırlanması, həmin tədbirlər planının icrası barədə hesabatın Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi):**

“Korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı 2021-ci il üzrə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Tədbirlər Planı” Dövlət Miqrasiya Xidmətinin rəisi tərəfindən 21.01.2021-ci il tarixdə təsdiq edilmişdir.

Həmin Tədbirlər Planının icrası barədə hesabat Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim edilmişdir.

**1.6-cı bəndin icrasına dair (Korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı təlimlər keçirilməsi üçün bu sahədə fəaliyyət göstərən ixtisaslaşmış qeyri-hökumət təşkilatlarına dəstək verilməsi):**

Dövlət Miqrasiya Xidməti tərəfindən mütəmadi olaraq qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi və onların fəaliyyətinin dəstəklənməsi istiqamətində iş aparılır. Bu əməkdaşlıq çərçivəsində hesabat dövrü ərzində Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri tərəfindən Xidmət əməkdaşlarına “Etik davranış qaydaları” və “Korrupsiyaya qarşı mübarizə” mövzularında onlayn təlimlər keçirilmişdir. Təlimlərdə 60 nəfər Xidmət əməkdaşı iştirak etmişdir.

8 oktyabr 2021-ci il tarixdə “İctimaishura.az saytının təqdimatı və İctimai Şuraların fəaliyyətinin təşviqi” mövzusunda keçirilən tədbirdə Dövlət Miqrasiya Xidmətinin əməkdaşı iştirak etmişdir. “İctimaishura.az” saytının müvafiq bölməsi digər QHT-lər kimi Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın fəaliyyətini özündə əks etdirməkdədir.

**1.9-cu bəndin icrasına dair (Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən etik davranış məsələləri ilə bağlı aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və buna görə tətbiq edilmiş intizam tənbehi tədbirləri barədə illik hesabatın hazırlanması və bu barədə məlumatın açıqlanması):**

Hər il olduğu kimi, 2021-ci il ərzində də miqrasiya orqanları əməkdaşları tərəfindən etik davranış qaydalarına əməl olunması, onların fəaliyyətində şəffaflığın və səmərəliliyin, vətəndaş məmnunluğunun təmin edilməsi, miqrasiya orqanlarının nüfuzunun artırılması əsas götürülmüşdür.

Eyni zamanda, Dövlət Miqrasiya Xidməti tərəfindən etik davranış məsələləri ilə bağlı aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və buna görə tətbiq edilmiş intizam tənbehi tədbirləri barədə illik hesabat Xidmətin rəsmi internet saytında yerləşdirilmişdir.

**4.1-ci yarımbəndin icrasına dair (Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən dövlət xidmətlərinin göstərilməsində səmərəliliyin artırılması məqsədilə həmin xidmətlər üçün tələb olunan sənədləri elektron qaydada əldə etmək, habelə dövlət orqanlarına gəlmədən həmin sənədləri elektron formada təqdim etmək imkanlarının genişləndirilməsi):**

Dövlət-vətəndaş əlaqələrinin müasir texnologiyalar vasitəsilə təkmilləşdirilməsi, dövlət xidmətlərinin elektronlaşdırılması, dövlət qurumlarındakı açıq məlumatların əldə

edilməsi günümüzün reallığı olduğunu nəzərə alaraq, Dövlət Miqrasiya Xidməti tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətinin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi məqsədilə mütəmadi tədbirlər görülür.

Hazırda Dövlət Miqrasiya Xidməti tərəfindən 17 elektron xidmət istifadədədir. Cari il ərzində bütün elektron xidmətlər yenilənmiş, "Müraciətlərin izlənməsi" elektron xidməti daha da təkmilləşdirilmişdir. Belə ki, yeni "Müraciətlərin izlənməsi" elektron xidməti vasitəsilə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər miqrasiya orqanlarına gəlmədən müraciətlərin icra vəziyyəti ilə bağlı məlumat əldə edə bilərlər.

Eyni zamanda, COVİD-19 pandemiyası ilə əlaqədar olaraq elektron müvəqqəti olma müddətinin uzadılması qərarının əldə edilməsi funksionallıqı təmin edilmiş, əcnəbi və vətəndaşlığı olmayan şəxslərə Xidmətə gəlmədən həmin sənədlərin elektron formada təqdim etmək üçün Xidmətin rəsmi veb səhifəsində elektron xidmətlərdən istifadə etmək imkanı təmin edilmişdir.

Hazırda, Xidmət tərəfindən göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilir.

**4.2-ci yarımbəndin icrasına dair (Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən dövlət xidmətinin göstərilməsi üçün zəruri olan sənəd və ya məlumat digər dövlət qurumunda mövcud olduğu halda, həmin sənədin və ya məlumatın vətəndaşdan tələb edilmədən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan alınmasının təmin edilməsi üçün bu prinsipin sahəvi normativ hüquqi aktlarda təsbit edilməsi, habelə bu prinsipə əsaslanan elektron xidmətlərin sayının artırılması):**

2021-ci il ərzində Xidmətin rəsmi internet səhifəsində kvota sərfiyyatı ilə bağlı interaktiv hesabat, "Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə məlumatın verilməsi", "Əcnəbi işçi qüvvəsinə tələbat haqqında proqnoz-məlumatın verilməsi", eyni zamanda icraatla bağlı funksional imkanlar tətbiq edilərək istifadəyə verilmişdir.

Bununla yanaşı, İAMAS-dan bir neçə qurumlar tərəfindən şəxs barədə məlumatın (şəxsiyyət vəsiqəsi, pasport, AVİS, VVADQ, viza və digərləri) əldə edilməsi təmin edilmişdir.

Digər imkanların təmin edilməsi üzrə işlər davam etdirilir.

**4.7-ci yarımbəndin icrasına dair (Elektron Hökumət infrastrukturunun təkmilləşdirilməsi və Elektron Hökumət İnformasiya Sisteminə qoşulan informasiya sistemləri və ehtiyatlarının sayının artırılması):**

Hesabat dövrü ərzində elektron xidmətlərin Elektron Hökümət İnformasiya Sistemində işlək vəziyyətdə olmağı təmin edilmiş, elektron xidmətlərin myGov protalına inteqrasiyanın təmin edilməsi ilə bağlı müvafiq işlər görülməkdədir. Eyni zamanda, Dövlət Miqrasiya Xidmətinin "ASAN Bridge" sisteminə qoşulması təmin edilmişdir.

Yeni elektron xidmətlərin yaradılması və mövcud xidmətlərin təkmilləşdirlməsi ilə bağlı mütamadi olaraq işlər davam etdirilir.

**4.10-cu bəndin icrasına dair (Dövlət Miqrasiya Xidmətinin informasiya ehtiyatlarında şəxsin ona aid olan məlumatları dəqiqləşdirməsi imkanını təmin edən elektron xidmətin yaradılması):**

Dövlət Miqrasiya Xidmətinin rəsmi veb səhifəsində "Dövlət rüsumu və cərimələrin ödənişi üzrə axtar", "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyat məlumatlarının yoxlanılması", "Müraciətlərin izlənməsi", "Ölkəyə gəliş və ölkədən gedişə məhdudiyyəti yoxla" funksionallığından istifadə edərək vətəndaşlar tərəfindən onlara aid olan məlumatların dəqiqləşdirmək imkanı təmin edilmişdir.

Bununla yanaşı, Xidmətin rəsmi internet saytının "Məktub yazmaq" bölməsindən gündəlik olaraq vətəndaş müraciətlərinin, habelə Xidmətin rəsmi elektron poçtuna

(info@migration.gov.az) dövlət orqanları, özəl təşkilatlar və digər qurumlardan daxil olmuş sorğuların icrası  təmin edilmişdir.

Həmçinin, “myGov” və “E-Gov” portallarından daxil olmuş müraciətlərin cavablandırılması təmin edilmişdir.

**5.4-cü bəndin icrasına dair (Dövlət Miqrasiya Xidmətində kollegial qərarların qəbulu prosedurlarında, dövlət komissiyaları və işçi qruplarda vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının iştirakının və təmsilçiliyinin genişləndirilməsi):**

Bildiyimiz kimi, dövlət qurumlarının fəaliyyətində ictimai iştirakın genişləndirilməsi dövlət idarəçiliyinin inkişafının əsas istiqamətlərindəndir. Qeyd olunanlar nəzərə alınaraq, Dövlət Miqrasiya Xidməti 2015-ci ildən yaradılmış Xidmət yanında İctimai Şuranın fəaliyyətinə xüsusi önəm verir. Belə ki, Xidmət yanında İctimai Şuranın fəaliyyət müddətində birgə əməkdaşlıq çərçivəsində ölkəmizdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının genişləndirilməsi, onların qanuni mənafelərinin daha mükəmməl qorunması, miqrasiya proseslərinin tənzimlənməsi və miqrasiya proseslərinin təkmilləşdirilməsi məqsədilə təqdim edilən bir sıra innovativ və normativ hüquqi xarakterli təkliflər Dövlət Miqrasiya Xidməti tərəfindən nəzərə alınmışdır.

Cari ilin yanvar ayında 2020-ci ilin yekunlarına həsr olunmuş mətbuat konfransında Xidmət yanında İctimai Şuranın sədri Azər Allahverənovun iştirakı təmin edilmişdir.

Eyni zamanda, cari il ərzində Dövlət Miqrasiya Xidməti yanında Məşvərət Şurasının iclaslarında aparılan müzakirələrdə İctimai Şuranın iştirakı təmin edilmişdir.

04.06.2021-ci il tarixdə İctimai Şuranın Əmək miqrasiyası üzrə İşçi Qrupunun və "Y-Lex Consulting Company" MMC-nin (hüquq şirkəti) təşəbbüsü ilə "Əməkçi miqrantların və əcnəbilərin pandemiya dövründə əmək hüquqları" mövzusunda keçirilmiş dəyirmi masanın təşkilati işlərinə dəstək verilmiş, eyni zamanda, Xidmətin nümayəndəsinin ekspert qismində iştirakı təmin edilmişdir.

1 iyun 2021-ci il tarixdə vətəndaş məmnunluğunun təmini, işəgötürənlərlə müxtəlif prosedurların sadələşdirilməsinə və elektron xidmətlərlə bağlı yeniliklərə dair məlumatlandırmanın aparılması məqsədilə müəssisə rəhbərləri, yerli və xarici fərdi sahibkarlar və onların nümayəndələri ilə keçirilən videokonfrans formatında növbəti görüşdə Xidmət yanında İctimai Şuranın sədrinin iştirakı təmin edilmişdir.

Azərbaycanda qaçqınların inteqrasiyası, habelə qaçqınların əmək və sosial təminatı ilə bağlı məsələlərin, bu sahədə görülən işlərin və gələcək perspektivlərin müzakirəsi məqsədilə İşçi Qrupunun 1 dekabr 2021-ci il tarixdə keçirilmiş növbəti iclasında Şura üzvləri də iştirak etmişdirlər.

İctimai Şura sədri 23 noyabr 2021-ci il tarixdə BMT-nin Azərbaycandakı Miqrasiya Şəbəkəsinin quruma üzv olan agentliklərin, beynəlxalq təşkilatların, hökumət, vətəndaş cəmiyyəti nümayəndələrinin, akademik dairələrin və özəl sektorun iştirakı ilə keçirilən növbəti əlaqələndirmə görüşündə iştirak etmişdir.

**5.5-ci bəndin icrasına dair (İctimai şuranın əhəmiyyətinin artırılması, Dövlət Miqrasiya Xidmətində yaradılmış ictimai şuranın sayının çoxaldılması, şurada müzakirə edilən məsələlərin əhatə dairəsinin genişləndirilməsi, ictimai şuranın fəaliyyəti ilə bağlı maarifləndirmə və təbliğat işlərinin gücləndirilməsi və Xidmətin rəsmi internet resurslarında əks etdirilməsi):**

Dövlət Miqrasiya Xidməti yanında İctimai Şura ilk dəfə 2015-ci ildə yaradılmış (5 nəfərdən ibarət), 2017-ci (7 nəfərdən ibarət) və 2019-cu il ərzində  keçirilmiş seçkilərdə isə Şura üzvlərinin sayı 9 nəfərədək artırılmışdır.

Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuraya növbəti seçkinin təşkili məqsədilə “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”yə uyğun olaraq 9 nəfərdən ibarət seçki

komissiyası yaradılmışdır. Seçki Komissiyası tərəfindən İctimai Şuranın 9 nəfərdən ibarət tərkibdə fəaliyyət göstərməsi qərarlaşdırılmışdır.

Müvafiq qanunvericiliyə uyğun olaraq 2021-ci ilin may ayının 7-dən 9 iyun tarixinə qədər İctimai Şuranın üzvlərinin seçilməsi məqsədi ilə namizədlərin qeydiyyatı barədə Xidmətin internet səhifəsində, sosial şəbəkə hesablarında və kütləvi informasiya vasitələrində elan verilmişdir. 6 iyul 2021-ci il tarixdə İctimai Şuraya seçkilər keçirilmiş, qanunvericiliyə müvafiq olaraq tələb olunan səs çoxluğunu toplamış 3 namizəd İctimai Şuranın üzvü seçilmişdir.

İctimai Şuranın 9 nəfərdən ibarət tərkibdə fəaliyyət göstərməsi qərarlaşdırıldığından boş qalan 6 yer üçün 9 iyul 2021-ci il tarixdə təkrar seçkilər keçirilmişdir. Qanunvericiliyə müvafiq olaraq ən çox səs toplamış 6 namizəd İctimai Şuranın üzvü seçilmişdir.

"Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İctimai Birliyinin sədri Azər Allahverənov səsvermə yolu ilə Xidmət yanında İctimai Şuranın sədri seçilmişdir.

Hazırda İctimai Şurada aşağıdakı İşçi Qrupları fəaliyyət göstərir:

Əcnəbilərin inteqrasiyası üzrə;

Əmək miqrasiyası üzrə;

Qanunvericiliyin təkmilləşdirilməsi üzrə;

Sığınacaq axtaran şəxslərin işləri üzrə;

Reinteqrasiya və qayıdış işləri üzrə;

Readmissiya olunmuş şəxslərin işləri üzrə;

Təhsil məsələləri üzrə;

Miqrantlara psixoloji dəstəyin göstərilməsi üzrə;

Gənclərlə iş üzrə;

Maarifləndirmə, təbliğat və təşviqat işləri üzrə;

Miqrantların tibbi təminatının təşkili üzrə;

Vətəndaşlığı olmayan şəxslərə hüquqi yardımların göstərilməsi üzrə.

İctimai Şuraya seçkilər Facebook sosial şəbəkəsi üzərindən canlı yayımlanmış, seçkilərlə bağlı bütün məlumatlar Xidmətin internet səhifəsində, sosial şəbəkə hesablarında və kütləvi informasiya vasitələrində ətraflı işıqlandırılmışdır.

2021-ci ilin I yarımili ərzində (13.01.2021-ci il tarixdə) İctimai Şura ilə Xidmət arasında videokonfrans formatında 1 iclas keçirilmişdir. İclasda 2020-ci ildə həyata keçirilmiş miqrasiya siyasətinin əsas nəticələri, bu sahədə cari vəziyyət və Şura tərəfindən görülmüş işlər barədə məlumat verilmiş, müasir şəraitdə xüsusi aktuallığı ilə səciyyələnən məsələlər ətrafında fikir mübadiləsi aparılmış, həmçinin 2021-ci ilin birinci yarısında Xidmət ilə Şura arasında əməkdaşlığın əsas perspektivləri və tərəflərin gözləntiləri barədə müzakirələr aparılmışdır. 13 aprel 2021-ci il tarixdə cari ilin 2-ci rübündə icrası nəzərdə tutulan fəaliyyətlərin planı tərtib edilmiş və həmin işlərin yerinə yetirilməsi ilə bağlı vəzifə bölgüsü aparılmışdır.

Miqrasiya idarəçiliyinin ölkəmizdə olan əcnəbilərə təsirini təhlil etmək və bu təhlil əsasında təkmilləşdirmələr aparmaq üçün əcnəbilər və vətəndaşlığı olmayan şəxslər arasında anonim sorğuların keçirilməsi məqsədilə Xidmət tərəfindən hazırlanmış sorğu vərəqələrinə Şurada baxılmış, verilən bir sıra təkliflər Xidmət tərəfindən nəzərə alınmışdır.

Şuranın Məcburi köçkünlər üzrə İşçi Qrupu məcburi köçkünlərin işğaldan azad olunmuş torpaqlara qayıdışı məsələləri ilə əlaqədar dövlət sifarişi əsasında ADA Universiteti tərəfindən cari ilin mart-aprel aylarında keçirilən sorğunun təşkili məsələlərində təşkilati dəstək göstərmişdir. Bununla yanaşı Şura üzvləri Beynəlxalq Miqrasiya Təşkilatının Regional Təlim Mərkəzinin fəaliyyətinin təşkili ilə bağlı hazırladığı sorğu anketini nəzərdən keçirərək təkliflər vermiş və cari ilin iyun ayında keçirilmiş sorğuda iştirak etmişlər.

8 fevral 2021-ci il tarixdə İctimai Şuranın əsas heyətinin iştirakı ilə görüş keçirilmiş, bir çox qərarlarla yanaşı Şuranın əsas heyətinin təşəbbüsü ilə "Azərbaycan – 2030: Sosial və İqtisadi Tərəqqi Naminə" QHT Koalisiyasının yaradılması barədə qərar qəbul edilmişdir.

İctimai Şura tərəfindən Bakı Dövlət Universitetinin Hüquq Fakültəsinin tələbələrinə "Miqrasiya qanunvericiliyi" və "Miqrasiya Məktəbi 3" layihəsinin iştirakçılarına "Miqrasiya

proseslərinin idarə olunmasında qeyri-hökumət təşkilatlarının rolu" mövzularında təlim keçirilmişdir.

Xidmətin təşkilatçılığı ilə İctimai Şuranın sədri tərəfindən Xidmət əməkdaşlarına "Etik davranış qaydaları" və "Korrupsiyaya qarşı mübarizə" mövzularında onlayn təlimlər keçirilmişdir. Təlimlərdə 60 nəfər Xidmət əməkdaşı iştirak etmişdir.

8-9 iyun 2021-ci il tarixlərdə Şuranın üzvlərinin Gəncə və Yevlax şəhərlərinə monitorinq məqsədilə işgüzar səfərlərinin həyata keçirilməsinə təşkilati dəstək verilmişdir. Səfər çərçivəsində Şura üzvləri Gəncə və Yevlax regional miqrasiya idarələrinin fəaliyyəti ilə tanış olmuşlar. İctimai Şura üzvlərinə regional miqrasiya idarələrinin əhatə etdiyi rayonlarda əcnəbi və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının müdafiəsi və onların ölkə ərazisində leqallaşdırılması istiqamətində görülmüş işlər, təşkil edilmiş səyyar xidmətlər, keçirilmiş maarifləndirmə və digər tədbirlər barədə məlumat verilmişdir. Şura üzvləri Gəncə "ASAN Xidmət" Mərkəzinin işi ilə tanış olmuşlar. Səfərin yekunlarına dair İctimai Şura tərəfindən təqdim edilmiş təklif və tövsiyələrin nəzərə alınması üçün Xidmətin aidiyyəti struktur bölmələrinə tapşırıq verilmişdir. İctimaiyyətin məlumatlandırılması məqsədilə eyni zamanda Xidmətin rəsmi internet səhifəsində sözügedən səfər işıqlandırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində İctimai Şuranın sədri iştirak edərək cari ilin mart ayının 14-də işğaldan azad olunmuş Ağdam rayonuna səfər etmişdir.

Hesabat dövründə Şuranın kütləvi informasiya vasitələri ilə əməkdaşlıq əlaqələri davam etdirilmiş, əcnəbilərin qeydiyyatı, vətəndaşlıq məsələləri, turizm sektorunda mövcud vəziyyət, xaricə miqrasiya, əmək miqrasiyası və digər mövzular barədə ətraflı məlumat verilmişdir. Belə ki, hesabat dövründə "Şərq" qəzeti, həmçinin bir sıra informasiya agentlikləri və saytları ilə əməkdaşlıq edilmiş, Azərbaycan Televizisiyası, İctimai TV, Azad Azərbaycan, ARB24, RealTV, SPACETV, MediaPostTV, AXCTV, CaucasianBureauTV, AstarTV, BakuTV televiziya kanallarında İctimai Şuranın məlumatına istinadən reportajlar yayımlanmışdır.

"Azərbaycan Respublikasında miqrasiya sahəsində fərqlənən şəxslərin təltif edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 mart 2021-ci il tarixli Sərəncamına əsasən miqrasiya sahəsində uzunmüddətli fəaliyyətinə və vətəndaş cəmiyyəti institutları ilə dövlət qurumları arasında əməkdaşlığın inkişaf etdirilməsində xidmətlərinə görə Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri Azər Kərim oğlu Allahverənov "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Hesabat dövründə Şura üzvləri tərəfindən Türkiyə, İran, Suriya, Rusiya, Gürcüstan, Qazaxıstan, Koreya, Kipr, Bolqarıstan və digər dövlətlərin vətəndaşlarına hüquqi məsləhətlər verilmiş və onların ölkə ərazisində olarkən qeydiyyat üçün müraciətlərin hazırlanmasına zəruri texniki dəstək göstərilmişdir.

Bununla yanaşı, Şuraya daxil olan müraciətlər təhlil edilmiş, miqrantlarla keçirilmiş görüşlər zamanı, onları narahat edən məsələlər və təklifləri öyrənilmiş və bu əsasda ölkə ərazisində olan miqrantların peyvənd olunması, qeydiyyatsız yaşayan əcnəbilərin müvafiq qaydada qeydiyyat üçün müraciət etməsi, əməkçi miqrantların iş icazələri və digər məsələlərlə bağlı Xidmət qarşısında müəyyən təkliflər irəli sürülmüşdür.

Həmçinin, qeyd edilən dövrdə də Şura tərəfindən miqrasiya sahəsində əcnəbilərin maarifləndirilməsi istiqamətində Xidmətin fəaliyyətinə dəstək verilmişdir

17 iyul 2021-ci il tarixdə Şuranın və İNJURİA Hüquq Jurnalının təşkilatçılığı ilə "Miqrasiya qanunvericiliyi" mövzusunda vebinar təşkil olunmuş, həmçinin 06 noyabr 2021-ci il tarixdə adıçəkilən təşkilatla birgə bir qrup Vətən müharibəsi iştirakçıları ilə görüş keçirilmişdir.

18-19 noyabr 2021-ci il tarixdə Şura sədri Gürcüstanda Miqrantların sağlamlığı üzrə Regional Ekspert Qrupunun təşkilatçılığı ilə keçirilən tədbirdə, 23 noyabr 2021-ci il tarixdə isə BMT-nin Azərbaycandakı Miqrasiya Şəbəkəsinin quruma üzv olan agentliklərin, beynəlxalq təşkilatların, hökumət, vətəndaş cəmiyyəti nümayəndələrinin, akademik

dairələrin və özəl sektorun iştirakı ilə keçirilən növbəti əlaqələndirmə görüşündə iştirak etmişdir.

8 oktyabr 2021-ci il tarixdə “İctimaishura.az saytının təqdimatı və İctimai Şuraların fəaliyyətinin təşviqi” mövzusunda keçirilən tədbirdə Dövlət Miqrasiya Xidmətinin əməkdaşı iştirak etmişdir. “İctimaishura.az” saytının müvafiq bölməsi digər QHT-lər kimi Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın fəaliyyətini özündə əks etdirməkdədir.

25-26 noyabr 2021-ci il tarixlərdə Şura təmsilçiləri Bakı şəhərində “Azərbaycanda Miqrasiya üzrə Regional Təlim Mərkəzinin yaradılmasına dəstək” layihəsi çərçivəsində regional seminarda iştirak etmişlər.

Azərbaycanda qaçqınların inteqrasiyası, habelə qaçqınların əmək və sosial təminatı ilə bağlı məsələlərin, bu sahədə görülən işlərin və gələcək perspektivlərin müzakirəsi məqsədilə keçirilən İşçi Qrupunun 1 dekabr 2021-ci il tarixdə keçirilmiş növbəti iclasında Şura əməkdaşları iştirak edərək bir sıra təkliflər irəli sürmüşlər.

2021-ci il dekabr ayında Şuranın təşəbbüsü ilə Xidmət əməkaşları ilə birgə Bakı Mühəndislik Universitetində, Qərbi Kaspi Universitetində təhsil alan əcnəbi tələbələrlə görüşlər keçirilmiş, onları maraqlandıran suallar ətraflı və dolğun şəkildə cavablandırılmışdır. Bu silsilədən olan tədbirlərin yaxın vaxtlarda davam etdirilməsi planlaşdırılır.

Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın fəaliyyəti ilə bağlı məlumatlılığın təmin edilməsi məqsədilə müvafiq məlumatlar (İctimai şuranın tərkibi, üzvləri, fəaliyyəti, təşkil edilən görüşləri, tədbirləri, həmçinin müzakirə edilən məsələlər) Xidmətin rəsmi internet səhifəsinin (3 dildə - Azərbaycan, rus və ingilis dillərində) “Xidmət haqqında” hissəsindəki “DMX yanında İctimai Şura” altbölməsində yerləşdirilmişdir və mütəmadi yenilənir. Həmçinin, bu məlumatlar Xidmətin rəsmi "Facebook", "İnstagram" və “Twitter” səhifələrindən geniş ictimaiyyətə çatdırılır.

**5.6-cı bəndin icrasına dair (Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması çərçivəsində mütəmadi müzakirələrin keçirilməsi və Platformanın fəaliyyətinin dəstəklənməsi):**

Azərbaycan Respublikasında islahatların dərinləşdirilməsi, idarəçiliyin səmərəliliyinin artırılması, eləcə də rüşvət və korrupsiyaya qarşı mübarizə sahəsində ictimai nəzarətin gücləndirilməsinə dair çağırışlara dəstək olaraq ölkənin 70-dən çox Qeyri-Hökumət Təşkilatının təşəbbüsü ilə təsis edilən, İdarə Heyəti 13 QHT rəhbərindən ibarət olan İctimai Nəzarət Mərkəzinin icraçı direktoru Fikrət Yusifovla danışıqlar zamanı şəffaflığın artırılması və ictimai nəzarətin gücləndirilməsi istiqamətində çağırışlara müvafiq olaraq İctimai Nəzarət Mərkəzi tərəfindən təşkil ediləcək geniş ictimai müzakirələrdə iştiraka razılıq bildirilmiş və Dövlət Miqrasiya Xidmətinin vətəndaş cəmiyyəti təsisatları ilə qarşılıqlı əməkdaşlıq münasibətlərinə açıq olduğu ifadə edilmişdir.

Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) İcraçı Direktoru Gülnarə Aslanbəylinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə AmCham-ın İcra Komitəsi, Direktorlar Şurası, Komitə sədrləri və ekspertlərin iştirakı ilə hazırlanmış “Ağ Sənəd 2021” adlı topluda miqrasiya məsələləri üzrə verilən tövsiyələrin müzakirə edilməsi və bu sahədə qarşılıqlı fikir mübadiləsinin aparılması məqsədilə onlayn formatda görüş təşkil edilmişdir.

Həmçinin, Dövlət Miqrasiya Xidməti yanında İctimai Şura üzvlərinin Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşəbbüsü ilə keçirilmiş “Pandemiya dövründə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisində əmək münasibətlərinin tənzimlənilməsi” mövzusunda onlayn seminarda iştirakları təmin edilmişdir.

2021-ci il ərzində Xidmətin vəzifəli şəxsləri tərəfindən vətəndaş məmnunluğunun təmini, işəgötürənlərlə müxtəlif prosedurların sadələşdirilməsinə və elektron xidmətlərlə bağlı yeniliklərə dair məlumatlandırmanın aparılması məqsədilə müəssisə rəhbərləri, yerli və xarici fərdi sahibkarlar və onların nümayəndələri ilə videokonfrans formatında növbəti görüşlər keçirilmiş və tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

Belə ki, 2021-ci il ərzində Alman-Azərbaycan Xarici Ticarət Palatasının (7 aprel

2021-ci il), Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasının (3 iyun 2021-ci il) və “Caspian European Club”un (30 iyun 2021-ci il) üzvləri ilə Xidmət rəhbərliyinin görüşləri keçirilmiş, özəl sektoru maraqlandıran məsələlər müzakirə olunmuş və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

17 sentyabr 2021-ci il tarixdə İctimai Nəzarət Mərkəzi tərəfindən “Narkomaniyaya qarşı mübarizə və vətəndaş cəmiyyəti” mövzusunda keçirilən ictimai müzakirədə, 08.10.2021-ci il tarixdə “İctimaishura.az saytının təqdimatı və İctimai Şuraların fəaliyyətinin təşviqi” mövzusunda keçirilən tədbirdə, 20.10.2021-ci il tarixdə İctimai Nəzarət Mərkəzinin 6 aylıq fəaliyyət hesabatı ilə əlaqədar virtual formatda keçirilən yığıncaqda, 04.11.2021-ci il tarixdə Azərbaycan Milli QHT Forumunun təşəbbüsü ilə "Zəfər günü" ilə əlaqədar keçirilən onlayn konfransda Xidmət əməkdaşlarının iştirakı təmin edilmişdir.

Bununla yanaşı, ötən müddət ərzində vətəndaş cəmiyyəti institutları ilə əlaqələr genişləndirilmiş, “Miqrasiya Könüllüsü” İctimai Birliyi tərəfindən keçirilən 90-dan artıq layihəyə dəstək göstərilmişdir.

**6.3-cü bəndin icrasına dair (Dövlət Miqrasiya Xidmətinin rəsmi internet informasiya ehtiyatlarında “Açıq məlumatlar” bölməsinin yaradılması):**

Cari il ərzində Xidmətin rəsmi internet səhifəsində “Açıq məlumatlar” bölməsi yaradılmış və ilkin olaraq həmin bölmədə Xidmətin fəaliyyətini əks etdirən müvafiq statistik məlumatlar yerləşdirilmişdir.

Bununla yanaşı qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23.08.2021-ci il tarixli 24803 nömrəli dərkənarı ilə Xidmətə daxil olmuş “Açıq məlumatlar” konsepsiya layihəsinə dair rəy və təkliflər bildirilmiş, sözügedən sənədin qəbul edilməsindən sonra Xidmətin rəsmi internet səhifəsində “Açıq məlumatlar” bölməsinin təkmilləşdirilməsi nəzərdə tutulmuşdur.